XalqBank

# ASC "Xalq" Bankının 2024-2026-cı illər üzrə İnkişaf Strategiyası



# ASC "Xalq" Bankının 2024-2026-cı illər üzrə İnkişaf Strategiyası

## STRATEJİ BAXIŞ

Yüksək korporativ idarəetmə standartı tətbiq edən müştəri yönümlü, universal və texnoloji bank olmaqla davamlı iqtisadi inkişafa töhfə vermək.

## MİSSİYAMIZ

ASC "Xalq" Bankı müştəri məmnuniyyətini qarşısında əsas prioritet qoyaraq müştərilərə multikanallar vasitəsilə yüksək keyfiyyətli məhsul və xidmətləri ən sürətli və effektiv şəkildə təqdim etmək üçün beynəlxalq səviyyədə qəbul olunan qabaqcıl bankçılıq təcrübələrindən istifadə edir.

Bankımız fəaliyyətində müştərilərin ehtiyac və gözləntilərini əsas tutaraq, onlara uyğun gələn həllər təqdim edir və beləliklə, müştərilər, səhmdarlar, əməkdaşlar, ümumilikdə cəmiyyət üçün dəyər yaradır.

Bank milli iqtisadiyyatın inkişafına və cəmiyyətin rifahına töhfə vermək üçün Azərbaycan Respublikasının iqtisadi və maliyyə siyasəti ilə müəyyən edilmiş prioritet sahələrə yönəlir və sosial məsuliyyəti nəzərə alan səmərəli fəaliyyət göstərir.

## DƏYƏRLƏRİMİZ

**Müştəri yönümlülük** – Məhsul və xidmət şərtlərini müştərilərin istək və tələbatına uyğunlaşdırırıq.

**Məsuliyyət** – Müştəri, tərəfdaş, səhmdarlar və vətəndaşlıq mövqeyimizdən irəli gələrək cəmiyyət və ətraf mühit qarşısında məsuliyyət daşıyırıq.

**Yüksək keyfiyyət** – Təcrübə, keyfiyyət, çeviklik və faydalılıq kimi xüsusiyyətləri özündə birləşdirən xidmət göstəririk.

**Loyallıq** – Müştərilərlə əməkdaşlığı uzunmüddətli fəaliyyət prinsipi əsasında qururuq.

**Sahibkarlıq ruhu** – Müştərilərin öz hədəflərinə çatmaq istiqamətində fəaliyyətlərinə daim dəstəkçi oluruq.

**Dürüstlük** – Müştəri və biznes tərəfdaşlarının etibarlılığını dürüst fəaliyyətlə doğrultmağa çalışırıq.

**Səmərəlilik** – Müştərilər üçün ən yüksək dəyəri yaradır, səhmdarlar üçün gəlirliliyi təmin edirik.

## STRATEJİ HƏDƏFLƏR:

- Bazarda sağlam və davamlı böyümə
- Rəqəmsallaşma
- Daxili nəzarət mühitinin inkişafı
- Datanın idarə edilməsi
- Loyal işçi məkanı
- Müştəri məmnuniyyəti